

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 226 (24.363)**

***6 dekabr 2023-cü il, çərşənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.gov.az**

**Qiyməti 30 qəpik**




## Ali Məclisin mətbuat xidmətinin məlumatı

2023-cü il 8 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçiriləcək.

İclasda "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirə olunması, həmçinin Ali Məclisin İqtisadi siyasət komitəsinin tərkibində dəyişiklik edilməsi nəzərdə tutulur.

## Xüsusi iqtisadi rejimin tətbiq edilməsi ilə bağlı tədbir olub

Naxçıvan Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə konfederasiyanın sədri Vüqar Abbasov çıxış edərək bildirib ki, ölkənin dayanıqlı inkişafının təmin edilməsi məqsədilə bütün sahələrdə həyata keçirilən islahatlar muxtar respublika iqtisadiyyatının inkişafında da yeni mərhələnin başlanmasını zəruri edir. Xüsusilə Naxçıvan Muxtar Respublikası ərazisində xüsusi iqtisadi rejimin tətbiq olunması istiqamətində hazırlıqlar bu sahədə müxtəlif tədbirlərin həyata keçirilməsini zəruri edir.



Qeyd olunub ki, Naxçıvan iqtisadi rayonunda dayanıqlı sahibkarlıq və investisiya mühiti yaradılmaqla xarici və yerli investisiyaların cəlb edilməsi, iqtisadiyyatın səmərəliliyinin artırılması üçün xüsusi güzəşt və imtiyazlar mexanizminin formalaşdırılması, yaşıl iqtisadiyyatın inkişafı, şaxələndirilmiş ixrac potensialına nail olunması, yeni iş yerlərinin açılması və digər istiqamətlərdə həyata keçiriləcək tədbirlər xüsusi iqtisadi rejimin tətbiq edilməsinə geniş imkanlar açacaq.

Vurğulanıb ki, xüsusi iqtisadi rejimin tətbiqi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə də zəmin yaradacaqdır.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb.

**Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Azərbaycan Respublikası "Əczaçılar Klubu" İctimai Birliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Naxçıvan Muxtar Respublikasında tibb və əczaçılıq biznesinin inkişafı forumu" keçirilib.*

## Naxçıvanda tibb və əczaçılıq biznesinə həsr olunan forum keçirilib

İştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər. Sonra forum Naxçıvan Muxtar Respublika Xəstəxanasının akt zalında öz işinə başlayıb. Ulu Öndər Heydər Əliyevin, Vətənimizin bütövlüyü və azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib.



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov bildirib ki, muxtar respublika səhiyyəsində son aylarda mühüm dəyişikliklər baş verib. Səhiyyə müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib, tibb müəssisələrinə mütəxəssis həkimlər dəvət olunub, tibb işçilərinin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə onların qardaş Türkiyə Respublikasının səhiyyə ocaqlarına ixtisaslaşma kurslarına göndərilməsi üçün müqavilələr imzalanıb. Qeyd olunub ki, keçirilən təlimlər, elmi konfranslar buradakı tibbi heyətin müasir səhiyyə yenilikləri ilə yaxından tanış olmasına şərait yaradır.




Vurğulanıb ki, muxtar respublikada fəaliyyət göstərən 104 əczaxanada çalışanların 98 faizi ixtisasca əczaçıdır. Bu forumda onlar da iştirak edirlər.

"Əczaçılar Klubu" İctimai Birliyinin sədri Şövqi Bunyatov bildirib ki, "Əczaçılar Klubu" İctimai Birliyi 2019-cu ildən fəaliyyətə başlayıb. Azərbaycanın 69 regionunda nümayəndəlik səviyyəsində təmsil olunur. Birlik Ulu Öndərin 100 illiyi münasibətilə silsilə tədbirlər keçirir. Bugünkü tədbir də onlardan biridir.



Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxışında bildirib ki, hazırda Naxçıvanda dərman vasitələrinin istehsalına lisenziya verilməsi üçün dövlət rüsumu 1125 manat, topdansatışına lisenziya verilməsi üçün 10 min manat, pərakəndə satışına lisenziya verilməsi üçün isə dövlət rüsumu 500 manatdır. Nazirlik tərəfindən, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlara lisenziyalar "ASAN xidmət" mərkəzi vasitəsilə təqdim edilir. Təkcə cari ilin ötən dövrü ərzində 57 lisenziya verilib ki, bunun da 28-i, yəni 49,1 faizi əczaçılıq fəaliyyəti sahəsində verilən lisenziyalardır.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi Abbas İsmayılov qeyd edib ki, yaradılmış əlverişli biznes mühiti və tətbiq edilən müasir vergi inzibatçılığı şəraitində burada fəaliyyət göstərmək istəyən bütün sahibkarlar öz işlərini qura bilərlər. Xidmətdə tətbiq edilən yeniliklər sahibkarların daha münbit şəkildə fəaliyyət göstərməsinə şərait yaradıb.

Özəl Tibb Müəssisələri Assosiasiyası İctimai Birliyinin sədri Günel Əliyeva çıxışında qeyd edib ki, ölkə başçısının Naxçıvanın sosial-iqtisadi inkişafı ilə bağlı təsdiq etdiyi Dövlət Proqramında prioritet istiqamətlər müəyyən olunub ki, bunlardan biri də səhiyyə sahəsi ilə bağlıdır. Naxçıvanda da özəl tibb müəssisələrinin açılmasına yaradılan şərait nəticəsində burada gələcəkdə fəaliyyət göstərəcək özəl xəstəxanalar insanların səhiyyə xidmətlərinə əlçatanlığını təmin edəcək.

Forumda çıxış edən "Asfarma" şirkətinin Azərbaycan ofisinin müdiri Baki Kaan Özgür Naxçıvana gəlməkdən məmnun olduqlarını bildirib. Qeyd edilib ki, bu dərman şirkəti MDB ölkələrində fəaliyyət göstərən aparıcı firmalardan biridir. Şirkət dünyanın bir sıra ölkələrində, həmçinin Türkiyədə istehsal olunan dərman və qida əlavələrinin marketinqi və satışı ilə məşğuldur.

Qeyd edək ki, çıxışlardan sonra panel müzakirələri keçirilib və qarşılıqlı fikir mübadiləsi aparılıb.

**Ramiyyə ƏKBƏROVA**

## Rəqəmsallaşdırma və innovasiyaların tətbiqində yeni mərhələ

Müasir dövrümüzdə informasiya-kommunikasiya texnologiyalarının təsir dairəsi genişlənərək dövlət strukturlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti bütövlükdə cəmiyyəti əhatə edir. Elə buna görə də informasiya texnologiyalarının daha geniş yayıldığı cəmiyyətlər dünyanın ən qabaqcıl cəmiyyətləri sayılır. Belə cəmiyyətlərin əsas üstün cəhətləri İKT-nin kütləvi istifadəsi, qlobal informasiya mühitinin yaradılması və digər bu kimi amillərdir. Artıq dünyanı İKT-nin bəxş etdiyi yeniliklərsiz, o cümlədən internetsiz təsəvvür etmək qeyri-mümkündür.

Heç şübhəsiz ki, ölkəmizdə də informasiya-kommunikasiya texnologiyalarının, o cümlədən rabitənin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 2003-cü ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olmuşdur. Onun diqqəti nəticəsində ölkə iqtisadiyyatında ilk xarici investisiyalar məhz telekommunikasiya sahəsinə qoyulmuşdur.

Rabitə sahəsinin inkişafı müasir mərhələdə dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Rabitə sahəsində çalışan işçilərə göstərilən dövlət qayğısının əyani ifadəsidir ki, Prezident cənab İlham Əliyevin 2006-cı il 2 dekabr tarixli Sərəncamına uyğun olaraq, hər il dekabrın 6-sı "Rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı günü" kimi qeyd olunur. Peşə bayramının məhz bu gündə qeyd olunması Azərbaycanda ilk telefon xəttinin yaradılması ilə bağlıdır. Belə ki, 1881-ci il dekabrın 6-da Bakıda "Nobel qardaşları" cəmiyyəti tərəfindən ilk telefon xətti çəkilmişdir.



Ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya və rabitə sahəsi muxtar respublikada da inkişaf etməkdədir. Bu gün muxtar respublikada rabitə və yeni texnologiyaların inkişafı istiqamətində, eləcə də əhaliyə nümunəvi rabitə və internet xidmətlərinin göstərilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublikada telekommunikasiya sahəsində yeni texnologiyaların istifadəsi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərlə bağlı müvafiq işlər aparılır, müasir telekommunikasiya xidmətləri istiqamətində irimiqyaslı layihələr icra olunur.

Rabitə sahəsində gedən sürətli inkişaf əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlərin davam etdirilməsinə əsas zəmin yaradıb. Bu gün muxtar respublikada abonentlərin müasir internet və rabitə xidmətləri ilə təmin edilməsi, göstərilən xidmətlərin hər kəsə əlçatan olması üçün kifayət qədər imkanlar və şərait mövcuddur.

İnformasiya texnologiyalarının müasir çağırışlar əsasında həyata keçirilməsi, əhaliyə yüksəkkeyfiyyətli internet və rabitə xidmətlərinin göstərilməsi məqsədilə nazirliyin maddi-texniki bazası davamlı olaraq möhkəmləndirilir, müasir avadanlıqlarla təchiz olunur. Nazirlik tərəfindən ixtisaslı kadrların hazırlanması istiqamətində zəruri tədbirlər də davam etdirilir. İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində fəaliyyət göstərən kurslar təcrübəli müəllimlər tərəfindən tədris olunur. Həmçinin gənc proqramçıların peşə istiqaməti üzrə biliklərinin artırılması istiqamətində də müvafiq işlər həyata keçirilir. Bunlarla yanaşı, rabitə idarələrinin müvafiq peşə ixtisasına malik olmayan əməkdaşlarının ixtisasartırma kurslarında iştirakı da təmin edilir.

Görülən işlərin nəticəsidir ki, bütün yaşayış məntəqələrində simli və simsiz internetə çıxış imkanları mövcuddur. Bu gün özünün yüksəliş dövrünü yaşayan muxtar respublikamızda uğurla həyata keçirilən sosial siyasət əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikada ən müasir texnologiyaların tətbiqi, telekommunikasiya və poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılmasına, internet xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə, təhlükəsizliyin, dayanıqlılığın və xidmətlərin fasiləsizliyinin təmin edilməsinə şərait yaradacaqdır. Dövlət Proqramında da qeyd edildiyi kimi, Naxçıvan Muxtar Respublikasında fiber-optik magistral şəbəkə yenilənəcək, əhalinin keyfiyyətli internet xidmətlərinə çıxışı asanlaşacaq, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və həmçinin mobil rabitənin inkişafı ilə bağlı tədbirlər həyata keçiriləcəkdir.

Həmçinin bu il oktyabrın 31-də Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaradılması haqqında imzalanan Sərəncam əsasında muxtar respublikada rəqəmsallaşdırmanın və innovasiyaların tətbiqinin genişləndirilməsinə, rabitə və informasiya texnologiyalarının inkişafına və sağlam rəqabət mühitinin formalaşdırılmasına geniş şərait yaranmışdır.

Bundan sonra da rabitəçilər yaradılan şəraitdən faydalanaraq muxtar respublikada yeni texnologiyalar sahəsinin inkişafını ən yüksək səviyyəyə çatdıracaq və muxtar respublikanı İKT sahəsində irəliyə aparacaqlar.

***Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mətbuat xidməti***



# Heydər Əliyev İli

*Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev 1990-cı il iyulun 20-də böyük manеələri aşaraq Moskvadan Bakıya, iki gün sonra isə doğulub boya-başa çatdığı Naxçıvana qayıtmışdır. Ulu Öndər Heydər Əliyev Naxçıvana gəldiyi ilk günlərdən bir çox yerli və xarici ölkələrin mətbuat orqanlarına müsahibələr vermiş, bu müsahibələrdə dövrün ictimai-siyasi proseslərinə münasibətini açıqlamışdır. Azərbaycanın ovaxtkı siyasi rəhbərliyi tərəfindən informasiya blokadasına salınan dahi şəxsiyyətin ən geniş və ölkədə böyük rezonans doğuran müsahibələrindən biri də həmin dövrdə Azərbaycan Kommunist Partiyası Saatlı Rayon Komitəsinin və Xalq Deputatları Sovetinin rəsmi orqanı olan "Dönüş" qəzetinin 1990-cı il 23, 25, 28 avqust tarixlərində dərc olunan müsahibə idi. Mütəllibov hakimiyyətinə güllə kimi dəyən bu müsahibənin dərcindən sonra müəllif Fəxrəddin Ağamirzəyev "öz ərizəsilə" işdən azad edilmiş, bir daha əlinə qələm almamaq şərtilə dilindən yazılı iltizam alınmışdır. "Şərq qapısı" qəzeti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümündə "Heydər Əliyevlə müsahibə"ni oxucularına təqdim edir.*

## Heydər Əliyevlə müsahibə

***– Yoldaş Əliyev, Sizi təcrübəli siyasi xadim kimi tanıyırlar. Deyirlər, milli və siyasi məsələləri qabaqcadan görmək Sizdə qeyri-adi hissiyyatdır.***

– Əlbəttə, mən siyasi xadiməm və uzun illər siyasətlə məşğul olmuşam. Bu sahədə mənim təcrübəm az deyil. Mənim bu təcrübəm də siyasi işlərin təhlilində və bu sahədə lazımi qərarlar qəbul etməkdə mənə kömək edir.



***– Aşkarlıq, demokratiya dövründəyik. Hər kəs öz sözünü deyə bilər. Siz bundan ehtiyat etmirsiniz ki?***

– Mən heç vaxt bildiyimi deməkdə ehtiyat etməmişəm. Əvvəllər də, heç aşkarlıq olmayan dövrdə də mən öz bildiyimi demişəm, indi isə daha da ürəklə, daha da inamla öz dəqiq fikrimi həmişə bildirmişəm və bildirəcəyəm.

***– Yoldaş Əliyev, Siz söhbətlərinizdə xalqımızı narahat edən Qarabağ haqqında bildirmisiniz ki, Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafında süni yaradılmış məsələləri tez bir vaxtda qaydasına salmaq olardı. Lakin respublikanın keçmiş rəhbərliyi və ittifaq rəhbərliyinin qətiyyətsiz mövqeləri bu məsələni daha da çətinləşdirdi. Söhbət gedir ki, Sizin rəhbərliyiniz dövründə erməni millətçiləri DQMV-ni Ermənistana birləşdirmək məsələsini qaldırmışlar və Siz dərhal onları susdurmusunuz. Mümkünsə, bu barədə.***

– Bəli, Dağlıq Qarabağ məsələsinin erməni millətçiləri tərəfindən keçmiş dövrlərdə bir neçə dəfə qaldırılması halları olub. Və mən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə rəhbərlik etdiyim dövrdə də erməni millətçiləri tərəfindən, xüsusən Ermənistanda yaşayan erməni millətçiləri və əsasən, Dağlıq Qarabağda anadan olmuş adamlar Dağlıq Qarabağın Ermənistana verilməsi məsələsi barədə cəhdlər ediblər. Onlar cürbəcür məktublar yazıb Moskvaya göndərib bu tələbləri irəli sürməyə çalışıblar. Ancaq bu məsələlərin hamısının qabağını o vaxtlarda biz almağa nail ola bilmişik. Və onların bu niyyətləri, arzuları ancaq məktub yazmaqdan ibarət olub. Ondan o tərəfə keçə bilmirdilər. Mən Mərkəzi Komitəyə rəhbərlik etdiyim dövrdə bu məsələlərə çox ciddi fikir verirdim və Dağlıq Qarabağ Muxtar Vilayətinin həyatı həmişə mənim diqqət mərkəzimdə olmuşdur. Ona görə də orada baş verən lap xırda hadisələr də bizə məlum olubdur. Mən vaxtında bunların haqqında ölçü götürürdüm. Və onların genişlənməsinə mümkünat vermirdim. Buna görə də mən qətiyyətlə deməyəm, yenə də deyirəm ki, Dağlıq Qarabağ haqqında 1987-ci ilin ikinci yarısında, sonunda başlanılan kampaniyanın qarşısını elə o vaxt almaq mümkün idi. 1988-ci ildə də bu problemi həll edib tamamilə Dağlıq Qarabağ məsələsini aradan götürmək mümkün idi. Ancaq çox, təəssüf ki, bu sahədə həm Azərbaycan Respublikasının keçmiş rəhbərləri, həm də ümumittifaq rəhbərləri lazımi tədbirlər görməmişlər. Və məhz bunun da nəticəsində Dağlıq Qarabağ məsələsi get-gedə şişmiş, çox əcaib şəkil almış, indi də iki respublika arasında, iki millət arasında böyük ziddiyyət yaranmasına səbəb olmuşdur.

***– Əlavə bir sual: Dağlıq Qarabağ məsələsi bütün respublikamızın əhalisini ciddi narahat edir, erməni milləti bizim xalqımıza təcavüz vəziyyətinə salır. Bu məsələdə siz çıxış yolunu nədə görürsünüz?***

– Çıxış yolu çox aydındır. Burada sözlə yox, əməllə çıxış yolu axtarmaq lazımdır. Bir sözlə, gərək konkret fəaliyyət göstərilsin. Çünki cürbəcür sözlər, deklorasiyalar – bunlar əgər həyata keçirilmirsə, onda, demək, çıxış yolu da tapılmır. Çıxış yolu birdir, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir. Dağlıq Qarabağ Azərbaycanın tərkibində olub və gələcəkdə də daim olmalıdır və Dağlıq Qarabağda vəziyyəti ancaq bu şərtlə həll etmək olar. Bunun başqa yolu yoxdur.

***– Silahlı dəstələrə qarşı prezidentin fərmanı çıxdı. Lakin bizə məlum deyil ki, nəyə görə erməni ekstremistlərinə bu qədər güzəştlər edilir.***

– Mənə də məlum deyil. Ancaq, eyni zamanda (acı-acı gülümsəyir-A.F.) məni təəccübləndirən məsələ odur ki, bu böyüklükdə ölkənin prezidenti fərman verir, 15 gün o fərmanın icrasına vaxt qoyur. Ermənistan respublikasında bu fərmanın əleyhinə qərar qəbul olunur və Ermənistan respublikasının Ali Soveti qərara alır ki, SSRİ prezidentinin fərmanı Ermənistanda qüvvədə olmamalıdır. SSRİ prezidenti də buna laqeyd yanaşır. Belə halda prezidentin qərarının tamamilə gücsüz olduğu aşkar görünür.

***– Deyirlər, Brejnev dövründə sizin hər cür imkanlarınız olub...***

– Bu sual bir az səthi fikirdir. Təkcə Brejnev dövründə deyil, mən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda Azərbaycan partiya təşkilatı çox düzgün fəaliyyət göstərirdi. Respublikanın həm sosial-iqtisadi, həm mədəniyyət sahəsində xeyli nailiyyətləri vardı, bu nailiyyətlər də Ümumittifaq miqyasında görsənirdi. Respublikanın nüfuzu ilbəil artırdı. Və bizim respublikanın zəhmətkeşlərinin, respublika partiya təşkilatlarının yaxşı işləməsi və qarşıya qoyduğu vəzifələri vaxtında yerinə yetirməsinə görə respublikanın Ümumittifaq qarşısında qoyduğu məsələlərə həmişə diqqətlə yanaşırdılar. Bu məsələlər də həll olunurdu. Onların hamısı da respublikanın inkişafına kömək edirdi.

***– Söhbətinizdə bildirirsiniz ki, mərkəzdən və Vəzirov tərəfindən Sizə qarşı qərəzkarlıq ediblər. Axı o da azərbaycanlı oğlu idi, həm də vaxtilə Sizin kadrınız olubdur. Elə isə Sizin əleyhinizə danışmağa onu nə məcbur edirdi?***

– Bilirsiniz, Azərbaycanda yaşayanların hamısı azərbaycanlıdır. Bu o demək deyildir ki, azərbaycanlının hər birisi Azərbaycan xalqına sədaqətlə qulluq edir, ədalət yolu ilə gedirlər. Düzdür, Vəzirov vaxtilə, 1972-ci ildə mənim şəxsi təşəbbüsüm nəticəsində partiya işinə götürülübdür. Ondan qabaq o, partiya işində işləməmişdi. Kirovabad (indiki Gəncə şəhəri) partiya komitəsinin birinci katibi vəzifəsinə təyin olunmuşdu. Bunlar hamısı mənim təşəbbüsümlə və mənim iştirakımla olmuşdur. Orada bir müddət işlədikdən sonra o, orada işləyə bilmədi, dəfələrlə onu oradan götürmək və Bakıya köçürmək xahişlərini mənim qarşımda qoydu və onun bu xahişini də biz yerinə yetirdik. Onu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin şöbə müdiri təyin etdik. Orada da o, bir partiya işçisi kimi özünü göstərə bilmədi. Özünün zəifliyini büruzə verdi. Və sonra da bu işin öhdəsindən gələ bilmədiyinə görə buradan çıxış yolu axtardı, çıxış yolunu da gedib xaricdə işləməkdə gördü. Bir neçə dəfə bizim qarşımızda xaricdə işləmək arzusunu irəli atdı. O vaxt yenə də biz ona, necə deyərlər, çox diqqətlə yanaşdıq, bu xahişini yerinə yetirdik, o, xaricdə işləməyə getdi. Ancaq xaricdə işlədiyi dövrdə – mən bir dəfə bunu öz müsahibəmdə qeyd etmişəm – o, həmişə Azərbaycana və o cümlədən Azərbaycanın rəhbəri kimi mənə – Əliyevə öz sədaqətini, məhəbbətini dəfələrlə göndərdiyi məktublarda yazıb bildirmişdi. Ancaq Azərbaycan Kommunist Partiyasının rəhbəri olandan sonra o özünün başqa üzünü göstərdi. Bizim həyatımızda ikiüzlü adamlar yeganəlik təşkil etmir. Belə adamlar çoxdur. Bu da onlardan biridir. O, nəhayət, öz iç üzünü açdı, bir mənə görə yox, – ola bilər ki, xalq üçün – bu adi məsələdir – bir adamın bir adama münasibəti – ancaq öz xalqına onun münasibətinin nə qədər mənfur olduğunu öz fəaliyyət dövründə göstərdi. Və xalq üçün heç bir yaxşı iş görə bilmədi. Ona görə də onun mənim haqqımda pis hərəkətləri təəccüblü deyildir. Demək, bu adamın təbiəti belədir.

***– Bəzən elə olur ki, müəyyən şayiələr həyatda həqiqətə çevrilir. Hələ sizin dövrünüzdə Vəzirovun söhbəti gedirdi ki, siz Mərkəzi Komitəyə gedəcəksiniz, Vəzirov isə Azərbaycana rəhbər gələcəkdir. Bu şayiələr, doğrudan da, göründüyü kimi, həqiqət oldu. Bu barədə nə deyə bilərsiniz. Onu hansı keyfiyyətlərinə görə belə yüksək vəzifəyə gətirdilər?***

– Bilirsiniz, mənim Mərkəzi Komitəyə getməyimlə Vəzirovun Azərbaycana rəhbərliyə gəlməsi arasında böyük məsafə var. Mən 1982-ci ilin sonunda Moskvaya işə keçirilmişəm, ancaq Vəzirov isə 1988-ci ildə gəlibdir. Demək, bu şayiənin əsası yoxdur. Ancaq Vəzirovun 1988-ci ildə Azərbaycan Kommunist Partiyasının rəhbəri vəzifəsinə gəlməsi, mənə belə gəlir ki, bu, çox təsadüfi bir haldır. Çünki bu adam belə vəzifəyə heç də layiq deyildi. Azərbaycan xalqına rəhbərlik etməsi üçün onun nə təcrübəsi vardı, nə lazımi biliyi vardı, nə də onun xalqa bağlılığı. Buna görə bu, təsadüfi haldır, odur ki, il yarımdan sonra belə bir adam artıq respublikada rəhbərlik edə bilmədi.

*(Ardı var)*

**Fəxrəddin AĞAMİRZƏYEV**
***"Dönüş" qəzeti, 1990-cı il***




## Beynəlxalq Könüllülər Günü qeyd olunub



"Duzdağ" hoteldə 5 dekabr – Beynəlxalq Könüllülər Gününün qeyd olunması münasibətilə tərtib olunan "Naxçıvan Könüllülərinin Birlik Həftəsi" layihəsinin yekun tədbiri – mükafatlandırma mərasimi təşkil olunub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondunun birgə təşkilatçılığı ilə reallaşan layihənin yekun tədbirində öncəki günlər ərzində keçirilən yarışmaların qalibləri və il ərzindəki könüllülük fəaliyyətinə görə fərqlənənlər təltif olunub, könüllü gənclər tərəfindən hazırlanmış konsert proqramı nümayiş etdirilib.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən Gənclər və İdman Nazirliyinin Aparat rəhbəri İlhamə Nəzərova və Gənclər Fondunun şöbə müdiri Arzu Qasımov əlamətdar günün tarixi, ölkəmizdə, eləcə də muxtar respublikada könüllülük hərəkatının inkişafı və qazanılan nailiyyətlərdən bəhs edib, bu nəcib fəaliyyət növünün gənclərə, o cümlədən təmsil olunduqları təşkilatların fəaliyyətinə qatdığı dəyərdən danışıblar. Ölkəmizin gələcək



inkişafı, öz karyeraları naminə fəaliyyətlərində könüllülərə tövsiyə və arzularını ifadə edən natiqlər gəncləri təbrik edərək uğur diləyiblər.

Sonra "Naxçıvan Könüllülərinin Birlik Həftəsi" çərçivəsində keçirilən yarışmaların qalibləri, ilin aktiv könüllüləri diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar. Tədbir könüllü gənclərdən ibarət həyətin təqdimatında konsert proqramı ilə tamamlanıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Ötən ay ərzində 876 daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları dövlət reyestrində qeydiyyata alınıb

Naxçıvan Muxtar Respublikasında əmlak və torpaq münasibətlərinin qanunvericiliklə tənzimlənməsi, vətəndaşların mülkiyyət hüquqlarının dövlət qeydiyyatının operativ yerinə yetirilməsi, torpaqların mühafizəsinə və onlardan təyinatı üzrə istifadəyə dövlət nəzarəti Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən 2023-cü ilin noyabr ayında da prioritet istiqamət kimi müəyyənləşdirilib, göstərilən xidmətlər mütəşəkkil qaydada həyata keçirilib.

Vətəndaş müraciətlərinə əsasən cari ilin noyabr ayı ərzində, ümumilikdə, 876 daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları dövlət reyestrində qeydiyyata alınıb. Bu dövrdə 689 texniki sənəd hazırlanıb. Həmçinin ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 93 daşınmaz əmlaka ünvanlar verilib. Naxçıvan Muxtar Respublikasında Ünvan Reyestri İnformasiya Sisteminin fəaliyyətinin təmin edilməsi, qanunvericiliyə uyğun olaraq ünvan məlumatlarının yenilənməsi və sistemləşdirilməsi məqsədilə Babək və Şahbuz şəhərlərinin yeni ünvan xəritələrinin layihəsi hazırlanıb.

Daxil olan vətəndaş müraciətlərinə əsasən ötən ay əmlakların məhdudiyyət və yüklülüyünə dair 153 arayış verilib, müvafiq dövr ərzində hüquqi və fiziki şəxslər tərəfindən elektron xidmətlərə 105 müraciət daxil olub. "ASAN xidmət" mərkəzində göstərilən müvafiq xidmət növləri üzrə, ümumilikdə, 736 müraciət icra üçün qəbul olunub.

Hesabat ayı ərzində kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 925 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib, 4 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binası sənədləşdirilib.

Xidmət tərəfindən muxtar respublikanın bir sıra yaşayış məntəqələrində əmlak qeydiyyatı ilə bağlı əlçatanlığın təmin edilməsi və vətəndaşların xidmətlərdən yararlanması məqsədilə səyyar xidmətlər də təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*Tarixi təcrübə sübut edir ki, milli ideologiyanın cəmiyyətdə özünə möhkəm dayaqlar tapması, ictimai təfəkkürdə möhkəmlənməsi görkəmli tarixi şəxsiyyətlərin siyasi və dövlətçilik fəaliyyəti ilə bilavasitə bağlıdır. Bu il anadan olmasının 100 illiyi ölkəmizdə və onun hüdudlarından kənarda ehtiramla qeyd edilən Ümummilli Lider Heydər Əliyev xalqımızın qəlbində təkcə xilaskar və qurucu lider kimi deyil, eyni zamanda əsrlərboyu ayrı-ayrı komponentləri formalaşmış Azərbaycançılıq ideologiyasını vahid sistem halına salan, cəmiyyətdə üstün mövqeyə malik olmasını, ictimai şüurda möhkəmlənməsini təmin edən dahi strateq kimi yaşayır.*

2023-cü il "Heydər Əliyev İli"dir

# Azərbaycançılıq – müstəqil Azərbaycan dövlətinin əsas ideyası



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında Ümummilli Liderin milli ideologiyanın formalaşmasındakı tarixi xidmətləri xüsusi qeyd edilir: *"Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur".*

Dahi şəxsiyyət bütün həyatı və fəaliyyəti boyu yalnız bir müqəddəs amala xidmət etmişdir. Bu Onun həyatının amalı olan Azərbaycançılıq ideyaları, Azərbaycan dövlətinə, xalqına xidmət idi. İstər sovet dövrü olsun, istərsə də müstəqillik illəri, fərqi yox idi. Görkəmli dövlət xadimi Heydər Əliyev hər zaman və hər yerdə Azərbaycan üçün çalışır, ən böyük qayəsini milliliyin, həmrəyliyin qorunub saxlanılmasında görürdü. Milli kökə və yaddaşa bağlı bir şəxs kimi O, daim xalqının milli-mənəvi irsinə, amallarına sadiq qalaraq onun mənafelərini təmin edən siyasət yürütmüş və uzaqgörən siyasətçinin parlaq siyasi zəkası sayəsində Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə qədəm qoymuşdur. Məhz Heydər Əliyev zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Dahi şəxsiyyət Heydər Əliyev deyirdi: ***"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir".***

Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Ulu Öndərin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev epoxası kimi əbədi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu Azərbaycançılıqdır. ***"Fəxr edirəm ki, mən azərbaycanlıyam"***, – deyən Ümummilli Liderimiz Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi həm də onda təzahür etmişdir ki, O, diaspor ilə işi yalnız ölkəmizin siyasi-iqtisadi maraqlarının tərkib hissəsi olaraq deyil, ilk növbədə, milli-mənəvi məsələ kimi irəli sürürdü. Ulu Öndərin böyük uzaqgörənliklə irəli sürdüyü Azərbaycançılıq ideologiyası milli diasporun formalaşmasına ciddi ideoloji-siyasi və mənəvi zəmin yaratdı. 2001-ci ildə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi də Azərbaycan xalqının həmrəyliyinin nümayişinin ən yaddaqalan zirvələrindən biri oldu.

Tarix dəfələrlə sübut etmişdir ki, millətin tale məsələsi olan dövlət müstəqilliyini qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir. Tanrı hər iki nemət Azərbaycan xalqına ***"Mən həyatımda üç şeyə: Yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam"***, – deyən, 35 ildən artıq bir müddət ərzində Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran, hələ sağlığında ikən canlı əfsanəyə çevrilən Heydər Əliyevin əli ilə bağışlamışdır. 1993-cü ildə "olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan dövlətçiliyi və xalqı görkəmli dövlət xadimi Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Dahi rəhbərin yenidən hakimiyyətə gəlişi dövrün diktəsi idi. Ulu Öndər Heydər Əliyev bütün bacarığını səfərbər edərək tezliklə tərəqqiyə nail oldu, ölkədəki mövcud problemlər həllini tapdı, iqtisadi və siyasi sabitlik təmin olundu və ölkəmizin beynəlxalq arenada nüfuzunun artırılması, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması və digər istiqamətlərdə konkret proqram və layihələrin işlənib hazırlanmasına başlanıldı.

Ulu Öndərimiz Heydər Əliyev müstəqilliyimizin, Azərbaycan dövlətçiliyinin təhlükə mənbələrini və ona qarşı mübarizə metodlarını müasirləri arasında daha aydın görürdü. ***"Dövlət – dövlətçiliyi qorumalıdır!"*** – deyən Ulu Öndər Heydər Əliyevin bütün fəaliyyətinin başlıca qayəsini məhz bu ideya təşkil edirdi. Ölkənin hər bir vətəndaşı müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi üçün şəxsi məsuliyyət daşıyır. Bunun üçün, ilk növbədə, hər kəsdən milli həmrəylik tələb olunur. Dahi şəxsiyyətin tövsiyəsi belə idi: ***"Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır..."*** Təsadüfi deyil ki, Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra Azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olub və Ümummilli Liderimiz haqlı olaraq deyirdi: ***"Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir".***

Bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanan Azərbaycan məhz Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ideologiya və strategiya əsasında inkişaf edir. Ölkə başçısı Azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək demişdir: ***"Bizi əsrlərboyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".***

Dahi ingilis yazıçısı Uilyam Şekspir yazırdı: *"Hər bir millətin istər tərəqqisi, istərsə də tənəzzülü həmin millətin gənclərinin alacaqları tərbiyədən asılı olur. Gənclik müdrikliyi mənimsəmək, qocalıq isə bu müdrikliyi tətbiq etmək dövrüdür".* Bu gün Prezident cənab İlham Əliyevin yeni çalarlarla zənginləşdirdiyi Azərbaycançılıq ideologiyası ətrafında birləşən müasir Azərbaycan gəncliyinin üstün keyfiyyətlərindən biri də onların liberal baxışlara, yüksək tolerantlıq mədəniyyətinə malik olmaları, multikulturalizm ideyasına milli birliyi təmin edən mühüm vasitə kimi yanaşmalarıdır. Müasir gənclik dövlətçilik atributlarına hörmətlə yanaşır, tariximizin, milli-mənəvi dəyərlərimizin, dövlət sərhədlərimizin qorunmasını, Vətən, torpaq uğrunda mübarizəni özünün vətəndaşlıq borcu sayır. Sevindirici haldır ki, Vətən müharibəsinin Tarixi Zəfərlə yekunlaşmasında xalq-dövlət birliyi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti, müdrik diplomatiyası və mükəmməl ordu quruculuğu strategiyası ilə yanaşı, gənclər siyasəti də həlledici rol oynayıb. Başqa sözlə, ölkə gənclərinin kamil milli ideologiya əsasında yetişdirilməsi Vətən müharibəsindəki layiqli Qələbəmizi təmin edib. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***"Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki bunu həmişə etmişik. Elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi – bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil, əlbəttə ki, bütün sahələrdə özünü göstərir".***

Ümumiyyətlə, 44 günlük Vətən müharibəsində dinindən, dilindən, əqidəsindən asılı olmayaraq, hər bir fərdin ərazi bütövlüyümüzün bərpasında fəal iştirak etməsi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında yumruq kimi birləşməsi bu ideologiyanın qüdrətini bütün dünyaya göstərib. "Şuşa ili"ndə Dünya Azərbaycanlılarının V Qurultayının mədəniyyət paytaxtımız olan azad Şuşada keçirilməsi də siyasi əhəmiyyət kəsb etməklə yanaşı, həm də böyük rəmzi məna daşıyırdı. Adı tarixə Zəfər Qurultayı kimi düşən bu forum bir tərəfdən Azərbaycan xalqının sarsılmaz birliyinin təcəssümü, digər tərəfdən isə Vətənini və xalqını canından artıq sevən Ulu Öndər Heydər Əliyev şəxsiyyətinə milli ehtiramın ifadəsidir.

*Bu gün hər kəs Ulu Öndərin müəyyənləşdirdiyi siyasi xətti Azərbaycan dövlətinin yeganə yaşam variantı kimi qavrayır və yaxşı bilir ki, Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur. Müstəqil Azərbaycan cəmiyyətində inkişafın bir hərəkətverici qüvvəsi var: bu – Heydər Əliyev ideyalarıdır. Heydər Əliyev yoluna sadiq olan xalqımız özünün milli liderinin ideyalarını yaşatdıqca, Onun zəngin xəzinəsindən bəhrələndikcə daim irəliyə gedəcək, yaşayacaq və rifaha qovuşacaqdır.*

**İlhamə MUSTAFAYEVA**
***Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, tibb üzrə fəlsəfə doktoru, dosent***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



**Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları "Şərq qapısı" qəzetində görəcəksiniz.**

## Fransada hüquq üzrə doktorluq müdafiə edən ilk azərbaycanlı

*Xaricdə yaşayan və öz doğma yurdunu layiqincə təmsil edən naxçıvanlılar mövzusunda söhbət düşəndə ağlıma ilk gələn o oldu. Məktəblərarası yarışlarda onun fransız dilində səlis danışmaq qabiliyyəti hamımızın marağına səbəb olurdu. Sonrakı illərdə bir çox şərurlu gənc təhsilini davam etdirmək üçün xaricə gedəndə onun da həmin gənclərin içərisində olduğunu öyrəndik.*



Aradan uzun illər keçsə də, soraqlayıb Dilbadini tapmaq elə çətin olmadı. Çünki o öz əməli işi ilə öndə olan insanlardandır. Telefon əlaqəsi yaradıb ona haqqında məqalə yazmaq istəyimi bildirəndə məmnunluğunu ifadə etdi.

Söhbətimizə elə məktəb illərindən sonrakı dövrdə yaşadıqları haqqında danışmaqla başlayır.

– Fransız dilinə olan marağım sonrakı illərdə yolumu Azərbaycan Xarici Dillər Universitetindən saldı. Ali təhsilimi tamamladıqdan sonra Fransanın Strasburq şəhərinə getdim və Hüquq fakültəsinə qəbul olub magistr pilləsini bitirdikdən sonra bu sahə üzrə elmi iş yazıb müdafiə etdim. Həmin doktorantura işi kitab halında çap olunub. Beynəlxalq hüquq sahəsində yazılan bu kitab tədris vəsaiti kimi istifadə olunur. Strasburq Universitetinin "Hüquq" jurnalında iki il elmi məqalələr yazmaqla bərabər həmin jurnalın baş redaktoru da oldum. Hollandiyanın Haaqa şəhərində beynəlxalq cinayət mərkəzində işlədim. Sonrakı illərdə Bakıya qayıtdım. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində baş məsləhətçi kimi işləyəndə həmin qurumun nəzdində jurnal yaradıb baş redaktoru oldum.

Dilbadi Qasımov onu da dedi ki, 2010-cu ildə yenidən təhsilini davam etdirmək üçün Fransaya qayıdıb, bir neçə ay Avropa Şurasında işləyib, iki il Strasburqda Vəkillər məktəbində təhsil alıb. 2014-cü ildən etibarən Strasburqda vəkillik fəaliyyəti göstərir. Fransada fəaliyyət göstərən ilk azərbaycanlı vəkillərdən biridir.

Fransadakı Azərbaycan icması ilə sıx münasibəti olduğunu bildirən müsahibim qeyd edir ki, bura erməni diasporunun ən güclü olduğu dövlətlərdən biridir və bu dövlətin açıq-aşkar onlara necə dəstək verdiyini hamı görür. Bütün bunlara baxmayaraq, burada yaşayan azərbaycanlılar öz vətənlərini layiqincə təmsil edir və ermənilərə tutarlı cavablar verir.

"Vətən müharibəsi başlayan həmin günlərdə mən də öz vətəndaşlıq borcumu yerinə yetirməyə var gücümlə çalışdım. Hüquqşünas olmağım da çox yerdə köməyimə çatdı. Azərbaycan tarixini yaxşı bilməyim də ermənilərlə olan debatlarımda onlara səlis və tutarlı cavablar verməyimə imkan yaradırdı. Vətən müharibəsində igid oğullarımızın şücaəti bizi daha da cəsarətləndirir və haqq səsimiz ucalırdı. Həmin günlərdə fransız mətbuat orqanlarına haqq davamız haqqında müsahibələr də verirdim.

Əlcəzairin, Mərakeşin radiolarında da çıxışlarım olub. Fransada yaşayan azərbaycanlılar həmişə həmrəy olub birlikdə öz vətənlərinin gerçəklərini ictimaiyyətə çatdırır. Burada "Kəpəz" nəşriyyat evi yaratmışıq ki, həmin nəşriyyat evinin ideya müəllifi və qurucularından biriyəm. Nəşriyyat evində Azərbaycan ədəbiyyatının nümunələrini fransız dilinə tərcümə edirik. Bu günə kimi ona yaxın kitab tərcümə olunub. Hazırda Yusif Səmədoğlunun "Qətl günü" əsəri tərcümə edilir. Azərbaycan həqiqətlərini Fransada yaşayan insanlara çatdırmaq üçün bir çox kitablar nəşr və tərcümə edilir. Yaxın günlərdə həmin nəşriyyat evi tərəfindən tərcümə və nəşr olunan Şuşa haqqında kitab fransız ictimaiyyətinə təqdim olundu. Özüm də Azərbaycan dilindən fransızcaya tərcümələr edirəm. "Qaraca qız" povestini tərcümə etmişəm".

Həmsöhbətim bildirir ki, doğma Vətənimizlə bağlı keçirilən bir çox konfranslara da dəvətlər alır. O, yaxın günlərdə Makedoniyada Azərbaycanla bağlı keçiriləcək tədbirdə iştirak etməyə hazırlaşır.

*Bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı fəxrlə mən azərbaycanlıyam, mən azad, bütöv, suveren, tolerant, qalib xalqın övladıyam sözünü qürurla deyir. Onlar öz yaşadıqları yerlərdə suyu, çörəyi ilə böyüdükləri Vətən üçün çalışır, Azərbaycanı layiqincə təmsil edirlər.*

**Ramiyyə ƏKBƏROVA**

*Azərbaycanın könüllülük hərəkatının tarixi, ölkənin müstəqilliyini qazandıqdan sonra xüsusi bir inkişaf yoluna keçib. Müstəqillikdən əvvəl könüllülük fəaliyyətləri, əsasən, dövlət tərəfindən idarəolunan və ideoloji məqsədlərə xidmət edən təşkilatlar tərəfindən həyata keçirilirdi. Ancaq müstəqillikdən sonra könüllülük daha çox fərdi təşəbbüs və cəmiyyətə xidmət ruhuna əsaslanmağa başladı.*

# Yeni təcrübələr, özünüifadə və peşəkar inkişaf imkanları: *könüllülük fəaliyyəti*



Azərbaycanda könüllülük hərəkatı 90-cı illərin sonlarına doğru genişlənməyə başladı. Bu dövrədək, əsasən, gənclərin təşkil etdiyi bu hərəkat müxtəlif sosial, mədəni və ekoloji layihələrdə fəal iştirak edərək ölkənin təhsil, sağlamlıq, ətraf mühitin qorunması kimi bir çox sahələrində könüllü fəaliyyətlər geniş yayıldı.

2000-ci illərin başlanğıcında Azərbaycanda könüllülük daha institusional xarakter alaraq bir çox yerli və beynəlxalq təşkilatlarla yeni əməkdaşlıqlar quruldu. Bu təşkilatlar könüllülərə təlim və tədris imkanları təqdim etməklə onların bacarıqlarını artırdı və daha effektiv fəaliyyət göstərmələrinə köməklik göstərdi.

Hazırda Azərbaycanın könüllülük hərəkatı daha geniş bir spektrdə fəaliyyət göstərir. Bu hərəkat xüsusən gənclər arasında özünüifadə, şəxsi və peşəkar inkişaf imkanları yaradaraq, onların cəmiyyətdəki rolunu gücləndirməkdə davam edir. Könüllülük,



eyni zamanda ölkənin sosial rifahına və davamlı inkişafına töhfə verən mühüm bir faktor kimi qalmaqdadır. Bu proses həm yerli, həm də qlobal səviyyədə əməkdaşlıq və həmrəyliyin gücləndirilməsinə xidmət edir.

Prezident cənab İlham Əliyev könüllülər haqqında demişdir: ***“Ümumiyyətlə, gənclər son illər ərzində ictimai həyatda çox fəal rol oynayırlar. Mən xüsusilə könüllüləri qeyd etmək istərdim. Mən çox şadam ki, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusu yaradılıb və könüllülər öz işi, öz əməlləri ilə cəmiyyətdə çox böyük rəğbət qazana biliblər, bizim ümumi işimizə çox böyük töhfə verirlər. Mən daim onların fəaliyyətini izləyirəm və onların fəaliyyətinə yüksək qiymət verirəm”.***

Azərbaycanın ən qabaqcıl ali təhsil müəssisələrindən biri olaraq Naxçıvan Dövlət Universiteti tələbələrinin könüllü fəaliyyətlərə qoşulmasını təşkil etməkdə önəmli bir rol oynayır. Universitet tələbələrin şəxsi və peşəkar inkişafına yönəlik geniş imkanlar təqdim etməklə yanaşı, onların cəmiyyətə müsbət təsir göstərmələrini də dəstəkləyir. Bu mənada, universitetdə könüllü fəaliyyətin təşkili, tələbələrə ətraf mühitin qorunması, təhsil, sağlamlıq və sosial yardım kimi sahələrdə fəaliyyət göstərmək imkanı yaradır.

Naxçıvan Dövlət Universitetinin könüllü fəaliyyət proqramları, tələbələri həm yerli cəmiyyətlərlə, həm də milli və beynəlxalq təşkilatlarla əlaqələndirir. Bu proqramlar tələbələrə cəmiyyətə faydalı olmaq, praktiki təcrübə qazanmaq və liderlik qabiliyyətlərini inkişaf etdirmək imkanı verir. Könüllü fəaliyyətlər tələbələrin həm akademik, həm də şəxsi bacarıqlarını artırmağa yardım edir.

Universitetdə təşkil edilən könüllü fəaliyyətlər arasında ətraf mühitin qorunması, təhsilə dəstək, sağlamlıq sahəsində maarifləndirmə, xüsusilə də uşaq və yaşlı insanlara yardım proqramları yer alır. Naxçıvan Dövlət Universitetində tələbələrin sosial məsuliyyət hissini gücləndirməyə və cəmiyyətdə fəal rol oynamalarına kömək edən müxtəlif layihələr və tədbirlər təşkil edilir.

Bundan əlavə, Naxçıvan Dövlət Universiteti könüllülük proqramları çərçivəsində tələbələrə təlimlər və seminarlar təşkil edərək onların könüllü fəaliyyətlərə daha effektiv qoşulmalarını təmin edir. Bu təlimlər tələbələrə lazımi bilik və bacarıqları öyrədir və onların cəmiyyətdə müsbət dəyişikliklər yaratmalarına köməklik göstərir.

Naxçıvan Dövlət Universiteti, həmçinin yerli və beynəlxalq əməkdaşlıqlar vasitəsilə tələbələrinə daha geniş bir platforma təqdim edir. Bu əməkdaşlıqlar tələbələrə müxtəlif mədəniyyət və cəmiyyətlərlə tanış olmaq və onlarla əməkdaşlıq etmək imkanı verir. Nəticədə, tələbələr beynəlxalq miqyasda təcrübə qazanırlar.

Naxçıvan Dövlət Universitetində hazırda İT könüllüləri, Media könüllüləri, Turizm könüllüləri, Texnologiya Mərkəzi Könüllüləri, Tələbə Həmkarlar İttifaqı Könüllüləri, Universitet Gənclər Təşkilatı Könüllüləri olmaqla, 6 könüllülük təşkilatı fəaliyyət göstərir. Universitet üzrə könüllü fəaliyyətinə cəlb edilən tələbə sayı isə 1000-dən artıqdır. Universitet tələbələrinin könüllü fəaliyyəti təkcə universitet ərazisindəki tədbir və layihələrlə məhdudlaşmır. Bu gün Naxçıvan Dövlət Universitetinin tələbələri Naxçıvan Muxtar Respublikasının müxtəlif dövlət orqanlarında – Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində, Gənclər Fondunda, Kənd Təsərrüfatı Nazirliyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyində, Səhiyyə Nazirliyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, Naxçıvan Baş Gömrük İdarəsində, Naxçıvan Regional “ASAN xidmət” mərkəzində könüllü olaraq fəaliyyət göstərirlər. Naxçıvan Dövlət Universitetindən müxtəlif dövlət orqanlarının könüllü fəaliyyətində iştirak edən tələbələrin sayı 500-dən artıqdır.

Naxçıvan Dövlət Universitetində könüllü fəaliyyətin təşkili, tələbələrin şəxsi və peşəkar inkişafı üçün mühüm bir addımdır. Bu fəaliyyətlər onların cəmiyyətə müsbət təsir göstərmələrini, liderlik və təşkilatçılıq qabiliyyətlərini inkişaf etdirmələrini və daha geniş dünyagörüşünə sahib olmalarını təmin edir.

**Əziz QASIMOV**
***Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri***
**Hüseyn İMANOV**
***Naxçıvan Dövlət Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri***

# *“Yaradıcı müzakirələr”* layihəsi ilə bağlı təlimlər keçirilib



*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvanda “Yaradıcı həftə” çərçivəsində “Yaradıcı müzakirələr” (“Creative Talks”) layihəsi həyata keçirilir.*

Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbirdə çıxış edən “Yaradıcı müzakirələr” layihəsinin koordinatoru Vüsal Süleymanlı, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Piri Nağıyev bildiriblər ki, 10 yaradıcı klaster üzrə ölkəmizin tanınmış simalarının bilik və təcrübələrini bölüşməsi bütün iştirakçılar üçün əhəmiyyətlidir.

İki gün davam edən layihə paytaxtda və regionlarda mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüsdür və yaradıcı subyektlərin formalaşmasının dəstəklənməsinə yönəlib.

Təlimin ilk günündə aktyor, rejissor və ssenarist Taleh Yüzbəyov “Yaradıcı kinematoqrafiya: Ssenaridən ekrana”, “Azərxalça” ASC-nin kreativ



direktoru, “Asmart Creative Hub” Mərkəzinin təsisçisi Əsmər Babayeva “Sərvət ipləri: biznes olaraq xalçaçılıq”, Mikro MMC-nin təsisçisi və direktoru, reper, prodüser Pərviz İsaqov “Pulun harmoniyaları: gəlirgətirən musiqi”, rəssam Erkin Ələkbərli “Mənfəətin fırça vuruşları: təsviri sənət biznesi”, Azərbaycan Animasiya Assosiasiyasının İdarə Heyətinin sədri, Animafilmin direktoru, rejissor və ssenarist Rəşid Ağamalıyev “Mənfəət üçün canlandırma: animasiya sənəti və ticarəti” mövzularında təlim keçiblər.

İkinci gün isə Tərlan Rəsulov “Səhnədə diqqət mərkəzində: teatrda pul qazanmaq”, Rəhim İsmayılov “Qələmlər və piksellər: rəsm və rəqəmsal incəsənət”, Məhər Məhərrəmov “Bədii şüşə sənəti və biznesi”, Orxan Şahbazov “Sözlərlə gəlir: ədəbiyyatda biznes baxışı” və Natəvan Əliyeva isə “Dəb, tərz və davamlılıq” mövzusunda təlimlər keçiblər.

Tədbirlər yaradıcı sənayelərin kino, animasiya, musiqi, teatr, təsviri və tətbiqi sənət, kulinariya, fotoklasterləri üzrə mövzuları əhatə edir.

Qeyd edək ki, layihə çərçivəsində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə 2023-cü ilin noyabr-dekabr aylarında 10 yaradıcı klaster üzrə 10 bölgədə (Quba, Bakı, Sumqayıt, Lənkəran, Naxçıvan, Gəncə, Mingəçevir, Şəki, Şamaxı, Şuşa), ümumilikdə, 100 tədbir keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

# Ölkənin müxtəlif rayonlarında qızılca xəstəliyi yayılmaqdadır

## *Naxçıvanda epidemioloji vəziyyət necədir?*

*Hərtərəfli inkişafın əsas meyarlarından biri də əhalinin sağlam epidemioloji mühitlə əhatə olunmasıdır. Epidemioloji sabitliyin qorunub saxlanılması isə o halda mümkün olur ki, işə kompleks şəkildə yanaşılsın, dövlətin həyata keçirdiyi müvafiq profilaktik tədbirlərlə yanaşı, cəmiyyətin özündə də bu işə ümumi maraq formalaşsın. Virus infeksiyalarından qorunmağın və xəstəliklərə yoluxmamağın üsulları, yoluxucu xəstəliklərlə mübarizə və profilaktika sahəsində görülən işlər haqqında məlumat almaq, xüsusilə də son zamanlar Naxçıvanda qızılca xəstəliyinin yayılması ilə bağlı xəbərlərə aydınlıq gətirmək üçün Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Pəri Əliyevaya müraciət etdik.*



Baş həkim bizimlə söhbətində bildirdi ki, qış soyuğu ilə bərabər bir sıra mövsümi xəstəlikləri də özü ilə gətirir. Xüsusilə də xroniki, infeksion xəstəliklər bu mövsümdə kəskinləşir. Bildiyiniz kimi, son zamanlar Azərbaycanın müxtəlif rayonlarında qızılca xəstəliyi yayılmaqdadır. Amma Naxçıvan Muxtar Respublikasında hazırda epidemioloji vəziyyət sabitdir. Bunun səbəbi isə Naxçıvanda uşaqlar arasında immunizasiya prosesinin yüksək səviyyədə aparılmasıdır. Çünki muxtar respublika ərazisində peyvənddən imtina hallarına çox nadirən rast gəlinir. Naxçıvanda indiyədək qızılca xəstəliyi ilə bağlı Yoluxucu Xəstəliklər Mərkəzinə bir azyaşlı stasionar xəstə qəbul edilib. Həmin xəstə isə müalicə olunaraq sağalıb və evə buraxılıb.

Ümumiyyətlə, qızılca xəstəliyi hava-damcı yolu ilə yoluxan infeksiyadır. Yoluxuculuğu çox yüksəkdir. Bu yalnız uşaqlarda deyil, həm də böyüklərdə də rast gəlinə bilən bir xəstəlikdir Qızılca xəstəliyinə yoluxma ömürdə bir dəfə olur. Sonra insanda daimi immunitet yaranır, ikinci dəfə yoluxma olmur. Amma heç vaxt qızılcaya yoluxmayanlar peyvənd olunsalar belə qızılcaya yoluxa bilərlər. Sadəcə, peyvənd olunduqları üçün xəstəliyi çox yüngül keçirirlər. Buna görə də vaksinasiya vacibdir. Bu xəstəliyin əlamətləri kimdəsə qeydə alınarsa, həmin şəxslər mütləq sahə həkiminə və ya Youlxucu Xəstəliklər Mərkəzinə müraciət etsinlər.

Biz hazırda payız-qış mövsümündə bu xəstəliklərin yayılma ehtimalını nəzərə alaraq muxtar respublikanın ərazisində dezinfeksiya işlərini aparırıq. Ötən həftə muxtar respublikada fəaliyyət göstərən ümumtəhsil məktəblərində və bağçalarda dezinfeksiya işləri aparıldı. Sanitar-epidemioloji vəziyyətin qorunub saxlanılmasında əsas tədbirlərdən biri də maarifləndirmə işlərinin aparılmasıdır. Bunun üçün həm kütləvi informasiya vasitələrinin imkanlarından istifadə olunur, həm də mütəmadi olaraq əhali arasında maarifləndirici söhbətlər aparılır. Xüsusilə məktəb tibb bacılarına bu haqda geniş məlumat verilib.

Qəzetiniz vasitəsilə valideynlərə bildirmək istərdim ki, 0-6 yaşlı uşaqları peyvənddən yayındırmasınlar. Peyvənd cədvəlinə uyğun olaraq uşaqlara peyvənd vurdursunlar. Hər kəsə məlumdur ki, immunitet orqanizmin sahib olduğu bioloji müdafiədir. O, orqanizmi xəstəliklərdən, mikroblardan və digər arzuolunmaz bioloji hücumlardan qoruyur. Yoluxucu xəstəliklərə yoluxmamaq üçün immuniteti gücləndirən qidalardan istifadə etsinlər. Daha çox meyvə, tərəvəzlərlə qidalanıb, bol maye qəbul etsinlər.

*...Unutmamalıyıq ki, epidemioloji vəziyyəti qorumaq hər kəsin vətəndaşlıq borcudur. Viruslardan qorunmaq üçün mütəxəssis həkimin çağırışlarına əməl edərək özümüzün, ətrafımızdakıların, ümumiyyətlə, cəmiyyətimizin sağlamlığını qoruya bilərik.*

✍ **Gülcamal TAHİROVA**

# Ölkə birinciliyində 3 karateçimiz mükafatçı olub




*Bakı şəhərində Azərbaycan Karate Federasiyasının WKF növləri üzrə uşaqlar (12-13), yeniyetmə və gənclər arasında 28-ci ölkə birinciliyi, böyüklər və parakarateçilər arasında 31-ci ölkə çempionatı keçirilib.*

Muxtar respublikadan 8 idmançı ölkə birinciliyində iştirak edib. Kumite növündə yarışan Canər Abbaszadə 14-15 yaş qrupunda -63 kiloqram çəki dərəcəsi üzrə bürünc medala layiq görülüb və eyni zamanda milli komandaya dəvət alıb. Birincilikdə iştirak edən digər Naxçıvan təmsilçilərindən Ulduz Hümbətova 16-17 yaş kateqoriyasında kata növündə gümüş, kumitedə (-66 kiloqram) bürünc mükafatçı olub. Yusif İsmayılov (-67 kiloqram) isə 18-20 yaşlılar arasında kumite növü üzrə bürünc medala layiq görülüb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *Bildiriş*

Naxçıvan Dövlət Universiteti 2023-2024-cü tədris ilinin payız imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) payız imtahan sessiyası 4 yanvar 2024-cü il tarixdən başlayır və 20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

**Rektorluq**

### *İtmişdir*

Babək rayonunun Nehrəm kənd sakini Novruzov Sərdar Nəsir oğlunun adına olan JN-1251A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Vərməziyar kəndində yaşamış Əliyev Tofiq Mamed oğlunun adına olan JN-202 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Zeynalov Sənan Cabbar oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçunun AD-0049973 seriya nömrəli şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 3-cü küçə (Lermontov), 42A ünvanında yaşamış Qulama Taryel Allahverdi oğlunun adına olan 8989 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 700